Məmmədrzayeva Ayşən Allahverdi qızı 5

ƏSƏRLƏRDƏ DEGENERATİV ZAMAN ANLAYIŞI

Zaman həyatın özüdür. Bizim saatla, dəqiqə ilə, saniyə ilə ölçüb-biçdiyimiz məqamdır. Bizim bütün gün ərzində yaşadıqlarımızın hamısı müəyyən zaman kəsiyində baş verir. Zaman - vaxt heç bir zaman dayanmır. Amma həyatda yaşayan canlı və cansız varlıqlar üçün zaman bitə bilər. Necə? Çox asan Bir əşyanın sınması, insanın və ya heyvanın ölməsi onlar üçün zamanın dayanması deməkdir. Hətta dünya dağılsa belə zaman dayanmır. Çünki dünya kainatın bir parçasıdır. Bəs dayanmayan zaman ədəbiyyatda necə özünü müəyyən edir? Necə olur ki, zaman dayanır? Eyni şəxs ölərək yenidən dirilir? Əlbəttə ki, buna çox sadə bir cavab vermək mümkündür. Yazıçı qarşısında qanun yoxdur. Onlar əsərlərində həyatın qoyduqları qanunları poza bilərlər, yeni qanunlar yarada bilərlər. Keçmişi bu günə gətirib zamanı dəyişə bilərlər. Bunu da yalnız yazıçı təxəyyülündə nəyi oxucuya necə çatdırmaq istədiklərini oxumaqla, təhlillə anlamaq olar. Mifoloji zaman - elmi dildə desək, həyatda heç bir reallıqla əlaqəsi olmayan, yalnız insan təxəyyülündə canlanan dövr deməkdir. Yazıçı bunu istədiyi kimi dəyişir. Özü görmək istədiyi yaratmaq istədiyi zamanı yaradır.Bir həqiqət də vardır ki, bu qədər çətinlik nəyə lazımdır? Bəlkə də həyatı olduğu kimi dərk etməyən şəxs əsəri oxuduqda hadisələri təxəyyülündə canlandırır, nəyin həqiqət, nəyin yalan olduğunu anlaya bilir.

Bu zaman müxtəlif formalarda ola bilər: mifik zaman, fantaziyalar, zaman dekonustruksiyası,zaman degenerasiyası, epik zaman və s. Bu zaman kəsiklərində istənilən dəyişikliklər etmək mümükündür. Amma yazarkən yazıçı ilk öncə oxucunu nəzərdə saxlamalıdır. Hər bir oxucunun şəxsi düşüncəsinin olduğunu, verilən mövzunun hər kəs tərəfindən necə qavrayacağını unutmamalıdır. Ona görə də mövzu elə qurulmalıdır ki, yazıçının çatdırmaq istədiyi ideyanı hər bir kəs anlasın. Əsərlər oxucuya əsasən üç zamanla verilir:1 - əsər yazarkən hansı zamana müraciət olunub? 2 -yazıçının yazdığı zaman 3- əsərin oxunma zamanı (Aktaş,1984;113-114) İlk zaman hadisənin özünəməxsus həqiqətləri ilə ortaya çıxır. Yəni yazıçı o dövrü real müşahidə etmədiyi üçün yalançı zaman adlanır. 2-ci zamana da biz həqiqətlə yanaşa bilmirik, çünki yazıçı yenə də görmədiyi zamanı əks etdirir. Üçüncü zaman kəsiyi də birincilərdən qaynaqlanır. Amma burada gerçəklik var. Bu gerçəklik yazıçının bu gün görmək istədikləridir. Oxucusunun oxuyaraq nəticə əldə etdiyi, ideyanı həyata keçirdiyi zaman. Bəs bu an yazıçı hansı zamana müraciət edə bilər? Zaman degenerasiyasına, zaman dekonstruksiyasına, mifoloji zamana və s. Zaman degenerasiyası nədir? Degenerasiya -insanın yenidən doğulması deməkdir. Bu termin tibbi termin olsa da, ədəbiyyatda da bir termin kimi özünə yer tapmışdır. Əsərlərdə degenerasiya nə ola bilər?, bu terminin obrazlılıqla nə əlaqəsi?, degenerativ zaman nədir? Bu zaman əsərlərdə özünü necə biruzə verə bilər?

Ümumiyyətlə, degenerasiya ədəbiyyatda cəmiyyətin ictimai müvazinətinin ruhi cəhətdən pozulması, bərpa olunması zaman xaricində mümükün olan deməkdir. Bu mövzuda yazılan əsərləri qarşı-qarşıya qoyarkən fərqli ünsürlər ortaya çıxır. Eyni mövzu müxtəlif əsərlərdə özünü müxtəlif formalarda göstərir. Bu zaman anlayışının araşdırarkən, dekandeizm adlanan cərəyan insan beynində canlanır. Dekandeizm XIX əsrin əvvəllərində Fransada mövcud olmuşdur. Bu sözün mənası ruhun çöküşüür, insanların həyata, dünyaya, xoş gələcəyə inamının ölməsi deməkdir. Zamanında heç də hamı tərəfindən qəbul olunmayan dekadentizm imperializm dövrünün mürtəce cərəyanı kimi inkar olunmuşdur. Əziz Mirəhmədov "Ədəbiyyatşünaslıq terminləri lüğəti" kitabında dekadentizmi belə xarakterizə edir: "Əksər hallarda ictimai həyatdan uzaq, xalq mənafeyinə xidmət etmək istəməyən sənətin təbliği, mövhumat və xürafat, dünyanı təbiət xaricindəki qüvvələrin idarə etməsi haqqında cəfəngiyyata inam, ifrat fərdiyyətçilik, sadə əmək adamlarına nifrət, "incə" hisslərlə əylənmək, ölümü, poz-ğunluğu və əxlaqsızlığı tərənnüm etmək, zahiri gözəlliyə və bədii formaların ala-bəzək olmasına çalışmaq və s. cəhətlər dekadentlərin başlıca xüsusiyyətləridir."(6,s2) Məsələn, Anarın "Göz muncuğu" və "Otel otağı" əsərlərinə diqqət etsək, görəririk ki, eyni mövzuya əsərlərdə fəqli istiqamətlərdən yanaşılıb. "Göz muncuğu" əsərində bir hadisənin eyni qəhrəman tərəfindən yaşandığı halda , "Otel otağı" əsərində müxtəlif şəxslər yaşayır. Həyatdakı bütün hadisələr zamandan asılı olmadığı kimi əsərdəki - yalançı dünyadakı hadisələr də istənilən formada üç zamanın bir əsərdə və ya bu günün keçmişə, keçmişin bu günə gətirilməsi zamandan asılı deyil. Bu zaman pozulması, yəni degenerasiya heç də əsərin zəif alınacağına səbəb olmur.

Degenerasiya insanın öldükdən sonra doğulması, həyata qayıtmasıdır. Bu əsərlərdə də özünü göstərir. Məsələn "Dədə Qorqud" dastanında Şöklü Məlik obrazı. Bu obraz dastanda beş boyda göstərilir. Hər birində oğuzların daxili düşməni, onları məvh etmək əzmi, döyüşlərə getmək və döyüşmək Şöklü Məliyin qarşısına qoyduğu məqsəddir. Bəs burada yenidən doğulma nədir?

Əlbəttə ki, yenidən doğulma var. Hər boyun sonunda döyüşə gedən Şöklü Məlik oğuzların birliyini məhv edə bilmir, nəticədə özü məhv olur - ölür. Və digər boyda yenidən canlanır. İ. Şıxlınn "Dəli Kür" romanında degenerativ zaman kəsiyi insanların ya həqiqətən ya da dolayısı yolla eyni həyatı yaşamaları və ya yenidən dünyaya gəlmələri ilə yazıçı təxəxüyyülündə nəyi canlandırmaq istədiklərini anlamaq üçün əsərin mövzusuna və ideyasına baxmaq kifayətdir.

Əsərləri oxuyarkən hər birində üç zaman görürük. Birincisi obrazların öz zamanları, yəni hər şey onların yaşadıqları həqiqi zamanları - hansı ki, müsbət və mənfi qanunları ilə onlar üçün qoyulmuş həqiqi zamandır. ikincisi degenerativ zaman. Bu zaman artıq məhv olmuş və arzuları və istəkləri parçalanmış bir yolla rastlaşır. O da Tanrının ona verəcəyi yeni bir zaman kəsiyidir. Və məhv olmuş, həyatı sönmüş obraz canlanır, ona verilən ikinci zaman, yəni degenerativ zaman yaranır. "Göz muncuğu" əsərində bu zaman obraz yeni bir həyata atılır. Əsərdə açıqlığı ilə verilməsə də, amma dolayısı yolla obrazın vaxtilə mənfi xasiyyətlərə malik biri olduğunu müəyyənləşdirir, amma sonradan dirildikdən sonra qəlbindəki şər qüvvələri məhv etməyə çalışır. Keçmişini unudub yenihəyata qayıtmaq istəyir, lakin keçmiş - şər qüvvə onu rahat buraxmır. Bu zaman üçüncü zaman yaranır: ya keçmişi unudub yeni ideyalarla yaşamaq, ya da keçmişin qanunlarının təkrar etmək. Bəlkə də o qonşusunun qızı ilə xoşbəxt ola bilərdi, seçimi edə bilərdi, amma o hadisədən sonra da hər şey dəyişib dəyişmədiyini yazıçı oxucu qarşısında sual kimi qoyur. "Otel otağı əsərində isə bu hadisəni yaşayan eyni insan deyil, müxtəlif dövrlərdə yaşayan, lakin eyni taleli insanlardır. Əsəri oxuyanda keçmişlə bu gündə yaşayan ziyalıların eyni həyatı paylaşdıqlarını görürük, amma hələ gələcək zaman var. Artıq bu zaman ümid zamanıdır. Hansı ki, bir gün gələcək. Hər şey tamam fərqli olacaq.

Digər bir əsər Y.Səmədoğlunun "Qətl günü" əsəri də bu qəbildəndir. Yəni degenerativ zaman - keçmiş, bu gün və gələcək eyni anda canlandırılır. Bu romanda yazıçı daxili monoloqları müəllif təhkiyəsi çərçivəsində yerləşdirərək əsərin əhatə

---

5 Baku Eurasian University

dairəsini daha da genişləndirir. Əsərdə qəhrəmanın daxili aləmi incəliklərinə qədər işıqlandırılır, həm də onun yaşadığı mühit münasibətdə olduğu adamlar psixoloji təhlilə cəlb edilir. Yəni müəllif aparıcı qəhrəmanla bərabər digər surətlərin də hiss-həyəcanlarını əks etdirmək imkanı əldə edir. "Qətl günü"romanındagərgin nöqtə seçilmişdir: ”Qətl günü” üç dövrü — qeyri-müəyyən qədim dövrü, bizə yaxın dövrü və cəmiyyətin bu gününü əhatə edir. Eyni zamanda, roman daxilində hər dövrün öz romanı var. Birinci dövrlə bizi Sə’di Əfəndinin romanı, ikinci dövrlə Sə’di Əfəndinin gündəlikləri tanış edir; üçüncü dövrə aid mə’lumatı Xəstənin — şərti müəllif obrazının, yazıçı-tənqidçinin nitqindən, daxili monoloq və dialoqlarından alırıq və beləliklə, bir romanda üç romanla tanış oluruq: başı qızıl teştdə satqın şairlərə təqdim edilən şairin romanı, Sə’di Əfəndinin romanı və xəstə yazıçı-tənqidçinin romanı. Hər üç roman pillə-pillə bir-birini tamamlayır və əsas fikir hər üç dövrə aid nümunə-paralellərlə təsvir edilir. Hər üç dövrün — hər üç romanın əsas qəhrəmanları xalq kütlələri və görkəmli sənət adamlarıdır. Əks qütbdə hakim təbəqə nümayəndələri, hökmdar, onun vəziri, Salahov və Muxtar Kərimli kimilər durur.

Romanda əbədi Xeyir-Şər mübarizəsi ortaya qoyulub. Bu mübarizə bəlkə elə dünyanın yaranışından üzü bəri gələ-gələ bitmək bilmir. İctimai quruluşlar, cəmiyyətlər və saysız- hesabsız insannəsilləribir-biriniəvəzedir, amma mübarizə davam edir. Hər dövrün, hər epoxanın, bəlkə də hər günün öz Hörmüzü və Əhrimәni olmuşdur. Bu əbədi döyüşdə həmişə Şər güclü olmuş, amma bəşəriyyət Xeyirə, İşığainam bəsləmişdir. "Qətl günü" də mənada bu istisna deyil və bu mövzu -Xeyir-Şərmübarizəsi onun da başlıca konflikti kimi müəyyənləşə bilər.

Ancaq romanınmahiyyətiniyalnızbu istiqamətdə öyrənmək doğru olmazdı. Doğrudur, romanda Şər həmişə aparıcı qüvvədir - yazıçı sanki bir-birini təkrar edən üç dövrdən söz açır - hər dəfə məmləkətinən gözəl isanları məhv olur, şairlər edam olunur, kütləvi insan qırğınları baş verir, şər meydan sulayır sanki Dünyanın Xeyir-Şər mübarizəsi eləbumodel üzərində qurulub.Ancaq Şərin törədiciləri olan qüvvələr bircə-bircə tarixin yaddaşından silinir, gözəl insanlar isə tarixə, yaddaşa köçürlər. Yusif Səmədoğlunun "Qətl günü"ndə eyni model təkrar olunur. Bəs əgər təkrar olunursa, onda bu əsər hansı bədii özəlliyilə seçilir? Həminəbədi mövzuya Y.Səmədoğlu orijinal tərzdə yanaşmışmı? Dünyanın əbədi modelində yeni olan nədir?

”Qətl günü” müasir dövrü əhatə edən əsərdir, bu günün,zamanın romanıdır. Tarixi keçmiş bu əsərdə müasirliyə xidmət edir. Bütün hadisələr, xarakter və obrazlar bir-biri ilə möhkəm bağlı olub, müasir insanın səciyyəsini aydınlaşdırır. İctimai məzmunu, quruluş, forma, dil xüsusiyyətləri sübut edir ki, əsər monolit əsərdir və yazıçının humanist fikirlərinin, bəşəri sevgisinin təcəssümü, insanı saflaşdırmaq, kamilləşdirmək istəyinin — yüksək idealın böyük sənətkarlıqla ifadəsi yolu ilə yaranmışdır. Bəşəriyyət tərəqqiyə, sivilizasiyaya doğru irəliləyir, insan zəkasının yaratdığı nəsnələr çox şeyi dəyişdirir, ancaq insandakı əzəli-əbədi xasiyyətlərin bir çoxu dəyişilməz qalır. Dünya yenə gücün, zorun, mənən-mənəmliyin, işğalçı müharibələrin cəngində inləyir. “Qətl günü” romanı bu mənada bir çağırış-haray təsir bağışlayır. İnsan həyatındakı ahəngdarlıq, ritm və harmoniya pozulanda o, nəfsin, tamahın və qəbahətin qulu olur.

Hər üç əsəri: "Göz muncuğu", "Qətl günü", "Otel otağı" əsərlərində paralellər çoxdur. Lakin son anda bu paralellər qırılır və paralel inkişaf etməli olan xətlər birləşərək, üç dövrün, üç əsərin vahid xətti kimi, yazıçı ideyasının parlaq ifadəsinə xidmət edir. "Göz muncuğu" əsərini oxuanda iki yol arasında qalırsan. Ya ölmüş bir şəxsin məhşər ayağında etdikləri səhvlərə görə cavab verməsi, ya da sadəcə olaraq ruhun bədəndən ayrılaraq keçmişə qayıdıb yaşadığı həyata öz gözü ilə baxması. Bəlkə də bu əsərdə bu hadisələrin hər ikisi də mövcuddur. Obraz məhşər ayağında ikən cəza olaraq keçmişinə göndərilir ki, etdikləri səhvləri öz gözləri ilə görsün və cəzasının nə qədər ağır olacağını anlasın. Bəlkə də obraz həyata qayıdaraq səhvlərini düzəldib həyata yenidən başlama şansı verilir. Həyatını,ona verilən vaxtı degenerasiyaya uğradan bu şəxs çox peşmandır. İkinci həyatı arzulayır. Lakin baş verən hadisələrin olub-olmaması dəqiq deyil. Bu əsərin bu üslubu bugünkü ədəbiyyatın qanunudur. Əvvəli və sonu bilinməyən əsər yaradaraq nəticəni oxucuya həvalə etmək. bu da bir priyomdur. Oxucunu nəticə çıxararaq özünü də tərbiyələndirmək

Doğrusu, bütün bu fəlsəfələri, Xeyir və Şər mübarizənin məsələlərini kənara qoyub, Əhlimana sadəcə bir insan kimi baxanda düşünürsən ki, onun ölümdən savayı yolu yoxdur. Çünki bu boyda yükə, fərqliliyə, başqalığa dözmək mümkünsüzdü. Təbiətin ona verdiyi, sonralar insanların, mühitin alışdırdığı, dərinləşdirdiyi əbədi bir bəla ilə yaşaması çətin idi. Ona görə də yaşamadı! Allahın ona göndərdiyi yeganə xilası Ay qızını buraxndan, məhv edəndən sonra yaşaması üçün səbəb qalmamışdı. ....Aydanın yanında cəsədi sərələndi yanında!

Bu da bir zaman degenerasiyası.Özünü həyatda tapa bilməyən qəhrəman məhvə doğru addımlayır, düşdüyü bəlanın içindən xilas ola bilmir. Nə qədər çalışsa da, mübarizə aparsa da, keçmişi onu izləyir. İnsanı məhvə doğru aparan hadisələr və bu yoldan nə qədər axtarsa da tapa bilmədiyi çıxış yolu və nəticəni ölümdə gördüyü sonluq.Oxuyucu əsəri oxuyarkən ilk fikri belə ola bilər. Ölü də dirilərmi? Bu fantastik əsərdir, oxumağa dəyməz. Lakin "Qurani Kərim" kitabında İsa peyğəmbərin ölüləri diriltməsi haqqında ayəni biliriksə, burada fantastik heç bir fikir yoxdur. Sadəcə olaraq həyata yenidən qayıdaraq keçmiş səhvlərini düzəltməklə nəyəsə nail olmaq üçün yazıçıların bir priyomudur.

Anar tədqiq etdiyi bir əsərində yazır: ”Qətl günü” — çətin əsərdir. Roman ilk oxunuşdan bəlkə də dərk olunmur. Dəruni müəllif qayəsi yüngül, asan oxunuşla açılmır.” Romanın quruluşunu düzgün dərk etmədikdə isə onun qaldırdığı problemləri düzgün anlamaq daha çətin olar.Nə üçün son dövr Azərbaycan ədəbiyyatında yazılan əsərlərdə bu cür mövzuların üstünlük təşkil etməsini anlamaq çətin deyil. Çünki bu dövrün qanunlarına baxdıqda həyatın özünün degenerasiyaya uğradığının şahidi oluruq.Axır zamanda insanların böyük əksəriyyəti darvinist diktatorluğun bu dəhşətli təzyiqinin təsirilə böyük əxlaqi çöküntü yaşayır. Cinayətlərin, müharibələrin, zülmün, azğınlığın və əxlaqsızlığın baş verdiyi və getdikcə yayıldığı bu dövr bütün ideoloji əsasını darvinizmdən alır. İnsanlar “heyvandan” əmələ gəldiklərini düşündükləri üçün darvinizmin əsasını təşkil edən “güclü zəifi əzər” yalanına kor-koranə inandırıldıqlarına görə bunu sosial həyata tətbiq etməkdə gecikməmişlər. Beləliklə, dövrümüzdə yaşanan insafsızlıq, vəfasızlıq, acgözlük, mənfəətçilik, etibarsızlıq, amansızlıq və düşmənçiliyin ən əsas mənbəyi, müharibələrin, əxlaqsızlığın, degenerasiyanın səbəbi darvinizmdir.

Bədii əsərlər də bu degenerasiyanı aradan qaldırmaq üçün bir priyomdur. Oxucunu öz əli ilə məhv edilməkdən xilas etmək. Doğru saydıqlarının yalnış olduğunu göstərmək. Nə qədər çalışsa da, fəlakətə sürükləndiyini dərk etdirmək. Bədii əsər oxucuya bunu üçün lazımdır. Həyat həqiqətlərini bədii obrazlarla əks etdirmək.

Yazıçı təxəyyülü,oxuculara çatdırmaq istədiyi fikir və bunun üçün tapdığı yollar müxtəlif olur. Əgər bir insan və ya cəmiyyət Allahdan qorxmadan bütün qanunları tapdayarsa, yaxşılığa doğru irəliləyən hadisələrin qarşısını alarsa, bir ölkənin

çiçəklənməsinə və bir şəxsiyyətin həyatına qarşı hər cür əxlaqsızlığı və pisliyi qorxmadan və nəticəni düşünmədən edən insanlar cəmiyyəti surətlə degenerasiyaya uğradırlar. Dinsizlik hər hansı bir sərhəd tanımadığı üçün cəmiyyətdəki bütün insani hissləri öldürür və qorxunc degenerasiyaya səbəb olur. Dinsiz cəmiyyətdə dinin insanlara gətirdiyi ədalət, mülayimlik, tərbiyə, mərhəmət və sevgi qətiyyən yoxdur. Ona görə, dinsizlik cəmiyyətdəki degenerasiyanın əsasmənbəyidir.

"Qurani-Kərim"də deyilir: "Kitab əhlindən elə bir kəs olmaz ki, ölümündən əvvəl ona iman gətirməsin, lakin o, qiyamət günündə onların əleyhinə şəhadət verəcəkdir".(4, Nisa surəsi, 159)

Ədəbiyyat

1. Anar. "Otelotağı" Bakı.1981
2. Anar "Gözmuncuğu","Azərbaycan" jurnalı 2014. №11
3. Kazımov Q. "Sənət düşüncələri". Bakı .1997.
4. "Qurani-Kərim" 1997
5. "Kitabi-Dədə-Qorqud" dastanı Bakı.Qızıl Şərq mətbəəsi.1988
6.Mirəhmədov Ə.Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı, Maarif, 1988
7. Nəzərova A. "Fəlsəfə terminlərinin izahlı lüğəti" Bakı
8. Salamoğlu T. Müasir Azərbaycan ədəbiyyatı. Bakı. BQU.2008
9. Səmədoğlu Y. "Qətl günü" romanı. Bakı."Qanun"nəşriyyatı. 1987
10. www.literature.az "Dekandeizm" anlayışı və onun ədəbiyyatda təzahür formaları səh. 2

Açar sözlər: zaman, degenerasiya, roman, həyat, fikir, obraz, xarakter
Key words: time, degeneration, novel, life, thoughts, images, character
Ключевые слова: время, вырождение, роман, жизнь, мысли, образы, характер

Resume

The article provides information about the concept of modern Azerbaijan literature during a degenerative time. During the destruction of life that a recovery is possible, but degenerative. Many works were written on the subject. These works were considered and analyzed in the article. Speaking of which, what does suggest that defined the idea of the writer. The influence of mythical times on todays literature has been studied. Today,in the works written in the literature, the degree of self-consciousness shows how much times has played role in this change. The reflections of the reality in the myth are studied. This article considers the mythical works and the time in these works in detail.

Резюме

В статье современное время в Азербайджанской литературе понятие дегенеративного время одного из время дается информация о. Дегенеративные время жизни уничтожения, но восстановление возможно, один срок. На эту тему написаны многочисленные произведения. В статье эти произведения были изучены и проанализированы.Говоря о том, что действительно предполагает, что определило идею писателя.Влияние мифических времен на современную литературу было изучено. Сегодня в работах, написанных в литературе, степень самосознания показывает, сколько раз сыграло роль в этом изменении. Отражения реальности в мифе изучаются. В данной статье подробно рассматриваются мифические произведения и время в этих произведениях.